# "Qızıl Palma" uğrunda mübarizə sona çatdı

## Qaliblərin sırasında adımızın çəkiləcəyi günün uzaqda olmadığına inanırıq




**Mayın 24-də 68-ci Kann Beynəlxalq Film Festivalı başa çatdı. Kinosevərlərin uzun müddət gözlədiyi gecə artıq gəlib çatmışdı. Bu il də çoxlarının gözləmədiyi, hətta ilk üçlükdə adlarının belə qeyd olunmadığı filmlər mükafata layiq görüldülər. Hər ilki kimi, bu il də Kann festivalı böyük bayram kimi qeyd olundu.**

Builki kino bayramı başlanğıcda bir özəlliyi ilə də yadda qaldı. Festivalın prezidenti Gilles Jacob yerini Pierre Lescure-ə verdi. Yeni prezident "Kanal+"un keçmiş başçısı və təsisçilərindən biridir. Dünya mediasının yazdığına görə, festivalın son 10 illik tarixində ilk dəfə bu möhtəşəm kino bayramını fransız rejissorun, həm də qadın rejissorun filmi açdı.

### QIRMIZI XALI MACƏRASI

Kann film festivalının xüsusi bir özəlliyi isə sənət adamlarının qırmızı xalı üzərində fotosessiya etdirərək, dünya mətbuatına müsahibələr verərək zala daxil olduğu andır. Gizli deyil ki, aktyor və aktrisalar ən dəbli geyimlərini məhz həmin günə saxlayırlar. Festivalda iştirak edən sənət cameəsinin nümayəndələri qalib olmayacaqlarını bildikləri təqdirdə belə, o qırmızı xalı üzərində yeriməyə daha çox can atırlar. Bəzən Kann festivalına o qırmızı xalının mükafatdan daha çox reytinq gətirdiyini də deyirlər. Xalının uzunluğu isə nə az, nə çox 2 km-dir. Film festivalının özündən məşhur olan qırmızı xalısı bu dəfə tədbir ərzində üç dəfə dəyişdirilib. Xalı üzərindən keçib zala daxil olan rejissor və aktyorlar mətbuat nümayəndələrinin suallarını cavablandırıblar.



Festivala təqdim olunan filmləri izləyən dünya kino mütəxəssisləri onların rəqabət üçün olmadıqlarını bildiriblər. Belə ki, dünyanın maraq dairəsində olan Kann film festivalına təqdim edilən filmlərdə fantaziya və ya dəhşətli səhnələr daha çox olub. Onlar bildiriblər ki, bu müsabiqədə yeni rejissorların filmləri də yer alıb ki, bu da film sahəsinə xüsusi bir yenilik gətirib.

### "ƏN YAXŞI"LAR...

Nəhayət, həyəcanlı dəqiqələr yaşanıb və sonda nəticələr açıqlanıb. Kann kinofestivalının baş mükafatı, "Qızıl palma budağı" fransız rejissoru Jak Odiara "Erran" filminə görə verilib. Xatırladaq ki, Odiar bundan əvvəl "Peyğəmbər" filminə görə festivalın Qran-Prisini almışdı. Builki festivalın Qran Prisi macar rejissor Laslo Nemeşə debüt filmi "Sın Saula" ya görə verilib. "Ən yaxşı rejissor" nominasiyasında Xou Syaosan "Qatil" filminə görə mükafatlandırılıb. Münsiflər heyətinin xüsusi mükafatı yunan rejissoru Yorqos Lantimosa "Lobster" filminə görə verilib. "Ən yaxşı kişi rolu" nominasiyasında Vensan Lendon "Bazar qanunu" filminə görə mükafatlandırılıb.

Runi Mara və Emmanuel Berko "Ən yaxşı qadın rolu" nominasiyasında mükafatı bölüşüblər ("Kerol" və "Mənim kralım" filmlərinə görə). "Ən yaxşı ssenari" amerikalı Mişel Frankonun "Salnaməçi" filminin (Baş rolda Tim Rot) ssenarisi hesab olunub. Fəxri "Qızıl palma budağı" klassik fransız kinosunun və "Sol sahil" rejissorlar qrupunun nümayndəsi Anyes Vardaya təqdim edilib. Bu, Emmanuelle Bercot-un "La Tete Haute" filmidir. Filmdə baş rolda Catherine Deneuve çəkilib.

Münsiflər heyətində fransız aktyor Sophie Marceau, kanadalı kino işçisi Xavier Dolan, ingilis aktyor Sienna Miller, meksikalı rejissor Guillermo del Toro, ispan aktyoru Rossy de Palma, malili müğənni Rokia Traore və amerikalı aktyor Jake Gyllenhaal yer alıb. Jüriyə tanınmış rejissor qardaşlar Joel və Ethan Coen başçılıq ediblər.



Məlumat üçün bildirək ki, festivalda ümumilikdə 83 film iştirak edib. Hər bir kino sahəsində çalışan rejissorun arzusu olan "Qızl Palma" mükafatı uğrunda əsas mövzuda 19 film yarışıb.

### KANN FESTİVALINDA AZƏRBAYCAN PAVİLYONU

Hər il Kann film festivalını izləyərkən ürəyimizdən nə zamansa bizim filmlərimizin də o festivala qatıla biləcəyi ilə bağlı arzular keçir. Yaxın illər ərzində filmlərimizin səsinin daha böyük festivallardan, kino müsabiqələrindən gələcəyini eşitsək də, bu cavablar bizi o qədər də qane etmir. Ancaq sevindirici haldır ki, dünyanın tanınmış film festivallarında kinomuz iştirak etməsə də, Azərbaycan pavilyonu dünya kino ulduzlarına təqdim olunur. Qismən də olsa, bununla təskinlik tapırıq.

Artıq 5-ci ildir ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Kann festivalında Azərbaycan pavilyonu təşkil edilir. Festivalda ölkəmizin nümayəndə heyəti iştirak edir. Heyətə Mədəniyyət və Turizm Nazirliyi Kino yaradıcılığı və filmlərin təbliği sektorunun müdiri Yusif Şeyxov, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov, kinoşünas, rejissor Ayaz Salayev, rejissor Asif Rüstəmov daxildirlər. Milli pavilyonumuzda Azərbaycan kinosunun müasir inkişafını, nailiyyətlərini, ölkəmizin turizm imkanlarını əks etdirən, həmçinin "Baku 2015" I Avropa Oyunlarını təbliğ edən çap, reklam məhsulları nümayiş olunur.

Bu il "Azərbaycanfilm" kinostudiyasının tarixində ilk dəfə olaraq Kann festivalının kino bazarına altı ekran əsəri təqdim edilib. Bunlar "Şəhər motivləri", "Qırmızı bağ", "Yarımçıq xatirələr", "İçəri Şəhər", "Axınla aşağı", "Qisas almadan ölmə". "Keçmişdən məktublar" bədii filmləridir.

Beləliklə, builki Kann film festivalı da sona çatdı. Hər il olduğu kimi, ümid edirik ki, bizim filmlərimizin və kino işçilərimizin adlarının bu cür müsabiqələrdə qaliblər sırasında çəkiləcəyi gün tezliklə gələcək.

**Xəyalə Rəis**